

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 191 (24.328)

*17 oktyabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Azərbaycan xalqı tarixə qızıl hərflərlə həkk olunan əbədilik qələbə qazanıb

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qarabağa səfər edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Tərtər rayonuna səfər edib.

Dövlətimizin başçısı Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışında iştirak edib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev istirahət parkında görülən işlər barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirildi ki, 1970-ci illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarının ətrafında yaradılan parkda əhalinin asudə vaxtının səmərəli təşkili üçün sahilboyu gəzinti cığırları salınıb, oturacaqlar, söhbətgahlar, uşaqlar üçün əyləncə meydançası, idman qurğuları quraşdırılıb. Ərazisi 7,5 hektar olan parkda, həmçinin turist informasiya mərkəzi, kafe, üzən estakada, turistlərə xidmət göstərəcək nəqliyyat vasitələri üçün avtodayanacaq yaradılıb. Burada geniş yaşıllaşdırma işləri görülüb, 5 minə yaxın ağac və kol əkilib.



Xatırladaq ki, Suqovuşan istirahət parkının təməli 2022-ci il martın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Həmçinin məlumat verildi ki, Suqovuşanda turizm infrastrukturunun yaradılması prosesinin ikinci mərhələsində yeni körpünün inşası, tarixi körpünün və ərazidəki məbədin, eləcə də məbədin ətrafındakı tarixi tikililərin konservasiyası, mövcud Bayraq meydanının parka adaptasiyası həyata keçiriləcək, genişmiqyaslı abadlıq işləri görüləcək.

Bildirildi ki, 1898-ci ildə inşa edilmiş məbəd Qarabağ zonasında ənənəvi alban dini memarlıq məktəbinin elementlərini özündə ehtiva edir. O, yerli əhəmiyyətli abidə kimi dövlət tərəfindən mühafizə olunur.

Həmçinin qeyd edildi ki, Suqovuşan qəsəbəsinin yerləşdiyi ərazi tarixən Qafqaz Albaniyasının tərkibinə daxil olmuş, onun sosial-mədəni və hərbi-siyasi tarixində önəmli yer tutmuşdur. Bu baxımdan qəsəbənin yaxınlığında yerləşən müqəddəs Yelisey monastırının Qafqaz Albaniyasının hökmdarı III Mömin Vaçaqanın adı ilə bağlı olması təsadüfi deyil.

Belə geniş ərazidə təməlqoyma mərasimindən ötən qısa müddət ərzində gözoxşayan istirahət parkının yaradılması olduqca füsunkar, bənzərsiz təbiəti olan və tarixi abidələrlə zəngin Qarabağ bölgəsinin tezliklə Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcəyini sübut edir.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Tərtər rayonunda Suqovuşan su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.

Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Azərbaycan Prezidentinə görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Suqovuşan su anbarı və magistral kanallar 1976-cı ildə istismara verilib. Su anbarının ümumi su tutumu 5,86 milyon kubmetrdir. Bəndin üstdən uzunluğu 630 metr, hündürlüyü 28 metr, eni isə 10 metrdir.

Dövlətimizin başçısı su anbarında görülən işlərə dair videoçarxa baxdı.

Su anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan Tərtər rayonunda 24,5 min, Ağdərə ərazisində 14,4 min, Goranboy rayonunda 7 min, Yevlax rayonunda 5,9 min, Bərdə rayonunda 12,6 min, Ağdam rayonunda 30 min, Ağcabədi rayonunda 2 min hektar olmaqla, ümumilikdə, 96 min hektardan çox torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaranmışdı. Su anbarında aparılan təmir-bərpa işləri həmin torpaq sahələrinin suvarılması işinin yaxşılaşdırılmasını təmin edəcək.

Prezident İlham Əliyev Suqovuşan su anbarını işə saldı.

Qeyd edildi ki, Tərtərçay və Turağayçay çaylarından daxil olan sular su anbarında tənzimlənərək, ümumi suburaxma qabiliyyəti saniyədə 70 kubmetr olan əsas magistral kanala, başlanğıcdan 5,2 kilometr sonra isə hər birinin suburaxma qabiliyyəti saniyədə 50 və 20 kubmetr olan sağ sahil və sol sahil magistral kanallarına verilir.

Bildirilib ki, su anbarında yeni inzibati bina və gözətçi binası, təmir emalatxanası və nasosxana tikilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı su anbarının ərazisinə baxdı.

Qeyd edək ki, mühüm strateji əhəmiyyətə malik Sərsəng su anbarı Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilib. 1976-cı ildə Ümummilli Lider Heydər Əliyev su anbarının açılışında şəxsən iştirak edib.

Sərsəng su anbarı Azərbaycanın ən bolsulu çaylarından olan Tərtərçayın üzərində yerləşir. Ümumi həcmi 560 milyon kubmetr olan su anbarı Qarabağ iqtisadi rayonunun ən iri su hövzəsidir. Bəndin hündürlüyü 125, uzunluğu 555, eni isə 10,2 metrdir. Sərsəng su anbarı vasitəsilə Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Yevlax və Goranboy rayonlarında, ümumilikdə, 96 min hektardan çox ərazi suvarılır. Su anbarının bəndində ümumi gücü 50 meqavat olan su elektrik stansiyası tikilib.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı əraziyə baxdı.

Qeyd edək ki, Ağdərə şəhəri 1993-cü il iyunun 27-də işğal olunub. Bu il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ağdərə şəhəri separatçılardan təmizlənib.

*Ardı 2-ci səhifədə*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Dövlətimizin başçısı burada çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

– Əziz həmvətənlər.

Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və “Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı “Allaha şükür” deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır.

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş



vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Vətən müharibəsi cəmi 44 gün çəkdi. Bütün bu günlər ərzində dəfələrlə xalqa müraciət edərək, eyni zamanda düşmənə müraciət edərək bildirmişdim ki, silahları yerə qoyun, torpaqlarımızın azad olunmasının qrafikini, tarixini verin və biz müharibəni dayandırmağa hazırıq. Biz Şuşanı – bizim müqəddəs ocağımız olan, alınmaz qala sayılan Şuşanı azad edəndən sonra artıq düşmən öz məğlubiyyətini dərk etdi, ağ bayraq qaldırdı və biz müharibəni dayandırdıq.

Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün, nə üçün biz o vaxt – noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da – noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax burada dalğalanan Azərbaycan Bayrağıdır.

Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə – hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün, bəlkə, o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

Bu il “Heydər Əliyev İli”dir. Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Necə qeyd edirik? Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik. Mən Ulu Öndərin ad gününü Şuşada keçirdim. Bilirəm, o vaxt bəziləri sual verirdi ki, təntənəli iclas harada keçiriləcək, təntənəli iclasda kim çıxış edəcək, hansı xarici qonaqlar gələcək? Sonra da gördülər ki, heç bir təntənəli iclas keçirilməmişdir. Nə üçün? Ona görə ki, bizim Ulu Öndərin xatirəsinə hörmətimiz əməli işlərlə ölçülməlidir. Bu, birincisi. İkincisi, Heydər Əliyev çox təvazökar insan idi, heç vaxt təmtəraqlı mərasimlər keçirmirdi. Onun 50 illiyini mən yaxşı xatırlayıram. 1973-cü ildə evdə ancaq ailə üzvləri onu qeyd etdik. Altmış illiyini də xatırlayıram, o zaman Moskvada çalışırdı. Orada da heç bir qonaq yox idi. Yetmiş illiyini Naxçıvanda oraya gələrək atamla birlikdə qeyd etmişdim. Səksən illiyini isə, – artıq sağlamlığı o qədər də yerində deyildi, – Ankarada xəstəxanada, xəstəxananın yeməkxanasında keçirmişik. Ona görə də atamın 100 illiyini bizim üçün böyük rəmzi məna daşıyan, hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etməli idim. Orada Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi dedim. Bu gün Ulu Öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub.

Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Onu da bildirməliyəm ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl – 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir. Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki o vaxt – 1992-1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı. Heç nə dəyişməyib bu 30 il ərzində. Xalqımız böyük faciələrlə üz-üzə qalmışdı, 1 milyon insan evsiz-eşiksiz qalmışdır, torpaqlarımız tamamilə dağıdılmışdır. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan öz gözləri ilə erməni vəhşiliyini görür. Bir dənə salamat bina qalmayıb. Bizə qarşı etnik təmizləmə aparılmışdır. Bizə qarşı soyqırımı törədilmişdir, Xocalı soyqırımı. Ondan çox ölkə Xocalı soyqırımını tanıyıb, “Xocalıya ədalət!” hərəkatı geniş beynəlxalq vüsət almışdır. Bax o çətin dövrdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərmişdir, Ulu Öndər Heydər Əliyevə dəstək vermişdir, onu prezident vəzifəsinə seçmişdir və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir.

Bu bina keçən əsrin 60-cı illərində inşa edilmişdir, Azərbaycan büdcəsi hesabına. O vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası idi. Buna partkom binası deyirdilər. Bu binada bir çox şəxslər oturub. Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışdır. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava şəraitində təmaslar var idi, birgə işlər görülürdü. Bu gün Sərsəng su anbarının üzərində Azərbaycan Bayrağını qaldırdıq. Heydər Əliyevin təşəbbüsü ilə bölgənin, kənd təsərrüfatının inkişafı üçün 1976-cı ildə Sərsəng su anbarı, Suqovuşan su anbarı inşa edilmişdir. O vaxt nə qədər böyük investisiyalar qoyulmuşdu. Ağdamdan Xankəndiyə dəmir yolu çəkildi, burada ali məktəb yaradıldı və Xankəndidə gördüyünüz binaların mütləq əksəriyyəti məhz o illərdə inşa edilmişdir. Kənd təsərrüfatı inkişaf edirdi. O vaxt, təkcə, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti 100 min tondan çox üzüm tədarük edirdi.

Bütün bunlar o vaxt kolxozlarda, sovxozlarda işləyənlər üçün gəlir mənbəyi idi, insanlar burada yaxşı yaşayırdı. Heç bir ayrı-seçkilik, diskriminasiya olmamışdır. Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm, o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin doqquz nəfərdən ibarət büro üzvü var idi. Onlardan səkkizi erməni, biri azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bax gətirdiyim misal nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub? 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyasının büro üzvlüyündən çıxarıldı. Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində, yenə Fransa. Yəni bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq o vaxt millətçilər buranı zəbt eləmişdilər, bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlamışdı. Bax o illərdə o binada oturanlar, bütün erməni və Azərbaycan xalqlarının faciələrinin səbəbkarlarıdır. Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm müstəqillik dövründə. Xüsusilə AXC-Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bütün bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya dondururaq kənara çəkildilər.

Yenə Heydər Əliyevin dühası, onun siması, Heydər Əliyev amili Azərbaycan xalqının yardımına yetişdi və biz haqlı olaraq Ulu Öndəri Xilaskar adlandırırıq. O vaxt Azərbaycanın dövlət müstəqilliyi əldən gedə bilərdi.

Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü “prezident” adlandırmış üç təlxək bax, burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq. Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu, 17 il. Üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı. Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda öz ləyaqətimizi bərpa etmişik.

Bax burada oturmuş özünü “prezident” adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü “baş nazir” adlandıran bir adam, görəsən, bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir. Burada özünü “xarici işlər naziri” adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara.

Ardı 3-cü səhifədə

Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax bu kadrlara yaxşı baxsın.

Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***

Sonra dövlətimizin başçısı şəhərin ərazisinə baxış keçirdi.

Xankəndi şəhərinin komendantı, polis general-mayoru Sərdar Səfərov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.

Dövlətimizin başçısı qəsəbənin ərazisinə baxış keçirib.

Qeyd edək ki, qəsəbə 1991-ci il dekabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Bu il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycan Ordusu Kərkicahan qəsəbəsini separatçılardan azad edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Şuşa rayonunun Malıbəyli kəndində olub.

Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirdi.

Xatırladaq ki, Malıbəyli kəndi 1992-ci il fevralın 11-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizlənib.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı şəhər ərazisinə baxış keçirdi.

Qeyd edək ki, Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə işğal olunub. Erməni işğalçıları Xocalıda Azərbaycan xalqına qarşı tarixin ən qanlı soyqırımlarından birini törədib. Bu soyqırımı nəticəsində 613 dinc sakin qətlə yetirilib.

Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Bu şəhərdə Azərbaycan Bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı rayonunun Əsgəran qəsəbəsində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı qəsəbə ərazisinə baxış keçirdi.

Qeyd edək ki, Əsgəran qəsəbəsi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub.

Qəsəbə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Əsgəran qalasında olub.

Dövlətimizin başçısı Əsgəran qalasına və əraziyə baxış keçirdi.

Qeyd edək ki, XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın göstərişi ilə inşa olunan Əsgəran qalası Azərbaycan memarlığının parlaq nümunələrindəndir. Qala Şuşadan 24, Xocalıdan isə 5 kilometr məsafədə yerləşir. Xocalı şəhəri 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra qala dağıntılara məruz qalıb.

Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Əsgəran qalası separatçılardan azad edilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocavənd şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı şəhər ərazisinə baxış keçirdi.

Qeyd edək ki, Xocavənd şəhəri 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.

Şəhər 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizlənib.

Ardı 4-cü səhifədə

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Ağdam-Füzuli avtomobil yolunun tikintisi işlərinin gedişi ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam-Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır.

Bərdə-Ağdam avtomobil yolunun davamı olan bu yol Ağdam, Ağcabədi, Füzuli rayonlarının ərazisindən keçir. Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla, birinci texniki dərəcəyə uyğun inşa edilir.

Torpaq işlərinin icrası çərçivəsində yararsız süxurun çıxarılması, qazma, yatağın genişləndirilməsi işləri davam etdirilir. Həmçinin yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə müxtəlifölçülü suötürücü borular, su keçidləri, zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin tikintisi aparılır. Yol üzərində layihələndirilən körpülərin tikintisi davam etdirilir və yol əsasının inşası bitən hissələrdə asfalt-beton örtüyün döşənməsi işləri görülür.

Sonra yolun tikintisi ilə bağlı görülən işləri əks etdirən videoçarx nümayiş olundu.

Qeyd edək ki, yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks-istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.



* * *



Oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonuna səfər edib.

Dövlətimizin başçısı Füzuli rayonunun Cuvarlı kəndinin təməlinin qoyulması mərasimində iştirak etdi.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Cuvarlı kəndinin layihələndirilən ümumi ərazisi 115 hektardır. Kəndə 1697 nəfərin köçürülməsi planlaşdırılıb. Burada, ümumilikdə, 291 fərdi ev və 2-4 mərtəbəli 21 yaşayış binası tikiləcək. Kəndin inşasının birinci mərhələsi üçün 28,1 hektar torpaq sahəsi ayrılıb və 129 fərdi ev tikiləcək. Bu mərhələdə kəndə 129 ailənin – 508 nəfərin köçürülməsi planlaşdırılır.

Qeyd edildi ki, kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, çörək sexinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 312 şagird yerlik orta məktəbin, 50 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin, kitabxananın, ticarət obyektinin, bazarın, qonaq evinin tikilməsi planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin inşası nəzərdə tutulub.

Prezident İlham Əliyev Cuvarlı kəndinin təməlini qoydu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli rayonunun Qoçəhmədli kəndinin təməlini qoyub.

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Qoçəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 94,62 hektardır. Kəndə 1364 nəfərin köçürülməsi nəzərdə tutulub. Burada, ümumilikdə, 341 fərdi evin tikilməsi planlaşdırılıb. Kəndin birinci mərhələsi üçün 18,1 hektar torpaq sahəsi ayrılıb və burada 204 fərdi ev inşa olunacaq. Bu mərhələdə kəndə 204 ailənin – 710 nəfərin köçürülməsi nəzərdə tutulub.

Qeyd olundu ki, kənddə çoxfunksiyalı inzibati binanın, bayraq meydanının, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq. Qoçəhmədli kəndində 264 şagird yerlik məktəb, 25 yerlik uşaq bağçası da inşa olunacaq.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Burada da enerjiyə qənaət məqsədilə alternativ enerjidən istifadə olunacaq və istilik tutumlu evlər tikiləcək.

Prezident İlham Əliyev Qoçəhmədli kəndinin təməlini qoydu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində idman kompleksinin təməlini qoyub.

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına kompleks barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 17 hektar olan kompleksin baş planına əsasən burada 200 yerlik tamaşaçı tribunası olan basketbol, voleybol, həndbol, badminton, minifutbol məşqlərinin və yarışların, eyni zamanda idmanın müxtəlif növləri üzrə turnirlərin keçirilməsinə imkan verən universal zal inşa ediləcək. Bundan başqa, kompleksdə 100 yerlik tamaşaçı tribunası olan üzgüçülük zalı, güləş, cüdo, boks, karate növü üzrə məşq və trenajor zalları yaradılacaq. Binada inzibati otaqlar, kafe, anbar və digər texniki sahələr də nəzərdə tutulub. Burada, həmçinin sauna və masaj otaqları, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar olacaq.

Diqqətə çatdırıldı ki, plana əsasən ərazidə süni ot örtüklü minifutbol meydançası, açıq havada idman alətləri ilə təchiz edilmiş meydança və texniki bina da yaradılacaq.

Qeyd edək ki, bu idman kompleksi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na əsasən inşa olunacaq.



***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub.

Dövlətimizin başçısına kompleks barədə məlumat verildi.



Bildirildi ki, Füzuli şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. İnşa olunacaq ikinci yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidən ibarətdir. Ümumilikdə, 2288 nəfər üçün nəzərdə tutulan kompleks üçün 9 hektardan çox ərazi ayrılıb. İkinci yaşayış kompleksində, ümumilikdə, 653 mənzildən 13-ü birotaqlı, 209-u ikiotaqlı, 281-i üçotaqlı, 150-si dördotaqlı olacaq.

Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

Kompleksdəki binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində 240 yerlik uşaq bağçasının təməlini qoyub.

Dövlətimizin başçısına uşaq bağçası barədə məlumat verildi.

Bildirildi ki, uşaq bağçasının inşası üçün 2,4 hektar torpaq sahəsi ayrılıb. Layihəyə əsasən uşaq bağçası üçün əsas bina, oyun zonası, avtodayanacaq və texniki zona yaradılacaq.

Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx olacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün hər cür şərait təmin ediləcək. Uşaq bağçasının həyətində oyun meydançaları salınacaq və digər zəruri infrastruktur yaradılacaq.

Prezident İlham Əliyev görüləcək işləri əks etdirən videoçarxa baxdı.

Sonra dövlətimizin başçısı uşaq bağçasının təməlini qoydu.

Qeyd edək ki, Azərbaycanda uşaqların təlim-tərbiyəsinə, sosial müdafiəsinin gücləndirilməsinə, vətənpərvərlik ruhunda və sağlam yetişmələrinə daim xüsusi diqqət yetirilir. Bu məsələ işğaldan azad olunan ərazilərdə də diqqət mərkəzində saxlanılır.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoyub.

Dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Bildirildi ki, üçüncü yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidə inşa olunacaq. Kompleksin inşası üçün 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaq.

Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

Kompleksdəki binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.

Dövlətimizin başçısı görüləcək işləri əks etdirən videoçarxa baxdı.

Sonra Prezident İlham Əliyev Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoydu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində inzibati binanın təməlini qoyub.

Dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, inzibati binanın inşa olunacağı şəhərin mərkəzi ərazisində 12 hektardan çox sahə ayrılıb. İnzibati binanın inşası üçün isə 4,4 hektardan çox ərazi nəzərdə tutulub. Burada parad meydanı, bir hektar sahədə park inşa olunacaq. Bundan başqa, digər regional qurumlar üçün də ərazi nəzərdə tutulub. Beş mərtəbədən ibarət inzibati binada ən müasir şərait yaradılacaq.

Prezident İlham Əliyev görüləcək işləri əks etdirən videoçarxa baxdı.

Dövlətimizin başçısı inzibati binanın təməlini qoydu.

**AZƏRTAC**

# Naxçıvanda “Güclü lider: Müzəffər Ali Baş Komandan” mövzusunda tədbir keçirilib



Oktyabrın 15-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin təşkilatçılığı ilə “Naxçıvansaray”da “Güclü lider: Müzəffər Ali Baş Komandan” mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə mövzu ilə bağlı fotosərgiyə baxıblar. Sərgidə Ümummilli Lider Heydər Əliyevin 100 illiyini və Ulu Öndərimizin layiqli davamçısı Prezident İlham Əliyevin siyasi-dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini, eləcə də Qarabağ zəfərimizi əks etdirən fotolar yer alıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək bildirib ki, bu gün cənab İlham Əliyevin Prezident seçilməsinin 20 ili tamam olur. Cənab İlham Əliyevin 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının





Prezidenti seçilməsi ilə ölkəmizin tarixində yeni inkişaf və tərəqqi dövrünün əsası qoyulub. Ümummilli Liderimiz Heydər Əliyevin 2003-cü ildə Azərbaycan xalqına müraciətindəki ***“İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”*** əminliyini dövlət başçısı əməli fəaliyyəti ilə doğruldub. Ötən dövrdə Azərbaycanda Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi sosial-iqtisadi islahatların əhatə dairəsini genişləndirib. İqtisadiyyatın bütün istiqamətləri üzrə həyata keçirilən inkişaf konsepsiyası, ümumilikdə, ölkəmizin müstəqilliyini və dövlətçiliyini, xalqımızın milli birliyini, mövcud ictimai-siyasi sabitliyi daha da möhkəmləndirib, Azərbaycan dünyada söz sahibi olan dövlətə çevirilib.



Qeyd edilib ki, ötən 20 ildə həyata keçirilən milli inkişaf doktrinasının əsas hədəfində, ilk növbədə, regionların inkişafı dayanır. 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı ardıcıl 4 dövlət proqramı qəbul və icra olunub, “Güclü dövlət, yüksək rifah” strategiyasına uyğun olaraq qısa zamanda ölkəmizdə güclü bazaya malik iqtisadi sistem qurulub, makroiqtisadi göstəricilərdə, ümumi daxili məhsulda və valyuta ehtiyatlarında dəfələrlə artıma nail olunub.

“Xalqın inam və etibarını qazanmaq siyasətçilərə xas xüsusiyyət deyil. Bu yalnız liderlərə məxsus keyfiyyətdir”, – deyən Fuad Nəcəfli vurğulayıb ki, İlham Əliyev şəxsiyyətinin böyüklüyü də ondadır ki, O, xalqı milli amallar və məqsədlər naminə öz ətrafında birləşdirən liderdir. Məhz Azərbaycanın qazandığı bütün uğurların təməlində də xalq-lider birliyi dayanır.

Dövlətçilikdə əsas məsələlərdən biri olan düzgün xarici siyasət kursundan da söz açan səlahiyyətli nümayəndə bildirib ki, bu gün Azərbaycan müstəqil xarici siyasət yürüdür, dünyada etibarlı tərəfdaş kimi qəbul edilir. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2022-ci illərdə sədrlik etməsi və yekdil qərarla sədrlik müddətinin 1 il uzadılması İlham Əliyev xarici siyasət strategiyasının təntənəsidir.



Bu bir reallıqdır ki, ötən 20 ildə Azərbaycanda əldə olunmuş ən mühüm nailiyyətlərdən biri də sosial islahatların əhatə dairəsinin genişləndirilməsi olub. ***“Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”***, – deyən cənab İlham Əliyev sosial islahatları Azərbaycanın dövlət siyasətinin ayrılmaz hissəsinə çevirib, vətəndaşlar layiqli həyat şəraiti ilə təmin edilib. Dövlət başçısının müəllifi olduğu institusional islahatlar sırasında Birinci vitse-prezidentlik institutunun yaradılması müstəsna əhəmiyyətə malikdir. Ötən dövr göstərdi ki, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi uğurlu fəaliyyəti, gördüyü işlər hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına yönəlib.

Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, Azərbaycan güclü orduya malikdir. Ümumiyyətlə, ordu quruculuğu İlham Əliyevin fəaliyyətində əsas hədəf kimi müəyyənləşdirilib. Silahlı Qüvvələrimizin maddi-texniki bazasının, döyüş qabiliyyətinin və peşəkarlığının davamlı artırılması, döyüş arsenalının müasirləşdirilməsi, son nəticədə, güclü müdafiə potensialı formalaşdırmaqla yanaşı, həm də 30 illik işğala son qoydu, torpaqlarımız azad olundu. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edərək regionda yeni geostrateji reallıqlar yaratdı.

Vurğulanıb ki, tarixi Qələbəmizi təmin edən bir çox faktorlar vardır. Bütün bunları özündə cəmləşdirən əsas faktor isə cənab İlham Əliyev şəxsiyyəti, Onun Vətəninə və xalqına bağlılığı, məharətli diplomatik bacarığı və qətiyyətidir. Məhz bu qətiyyət və siyasi iradə, liderlik bacarığı Qələbə ilə yanaşı, Azərbaycanda böyük qayıdışın da təməlini qoyub. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yenidən qurulur. Müharibədən çıxan bir ölkədə bu qədər genişmiqyaslı quruculuq işlərini aparmaq heç də asan məsələ deyil. Bu, birmənalı şəkildə dünya şöhrətli siyasi xadim İlham Əliyevin liderlik səriştəsinin nəticəsidir. Tarixi Qələbəmizin ən mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılması sahəsində görülən işlərdir. İstər bu, istərsə də Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası Naxçıvanın inkişafında yeni və ən mühüm mərhələnin əsasını qoyacaqdır.

Fuad Nəcəfli dünya şöhrətli siyasi xadim, qalib lider və tarixi şəxsiyyət cənab İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi münasibətilə muxtar respublika əhalisi və ictimaiyyəti adından təbrik edib, möhkəm cansağlığı, ali dövlətçilik fəaliyyətində uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək Prezident İlham Əliyevin liderlik missiyasından və siyasi fəaliyyətinin müxtəlif istiqamətlərindən danışıblar. Xüsusilə diqqətə çatdırılıb ki, dövlət başçısının təşəbbüsü ilə reallaşdırılan Bakı-Tbilisi-Qars, Cənub Qaz Dəhlizi, TANAP, TAP kimi transmilli layihələr, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycanın regional və beynəlxalq enerji təhlükəsizliyinin əsas təminatçısı, eləcə də mühüm nəqliyyat mərkəzi kimi rolunu artırıb. Bütün bu reallıqların fonunda Azərbaycan durmadan və hərtərəfli



inkişaf edir. Azərbaycanın çoxşaxəli inkişafı dünyada model kimi qəbul edilir. Gələcəyə hədəflənmiş bu uğurlu modelin əsasını isə Ulu Öndər Heydər Əliyevin məqsədyönlü siyasəti təşkil edir. Bu siyasəti uğurla və sədaqətlə davam etdirən dövlət başçımızın müəyyənləşdirdiyi iqtisadi, siyasi və hərbi gücə dayanan uğurlu strategiya Azərbaycanı bölgədə və Cənubi Qafqazda güclü və lider dövlətə çevirib.

Naxçıvan Dövlət Universitetinin tələbəsi Yusif Mirzəzadə çıxışında Azərbaycan gənclərinin Ulu Öndərimizin layiqli davamçısı cənab İlham Əliyevin məqsədyönlü və davamlı inkişafı təmin edən siyasi fəaliyyətini dəstəklədiyini bildirib. Vurğulanıb ki, dövlət başçımız gənclərin və təhsilin yüksək inkişafına xüsusi qayğı ilə yanaşır. Yusif Mirzəzadə tələbə-gənclər adından dövlət başçımıza ölkəmizin davamlı inkişafı naminə fəaliyyətində uğurlar və cansağlığı arzulayıb.

Sonda Naxçıvan televiziyasının hazırladığı Prezident İlham Əliyevin uğurlu siyasi fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

**“Şərq qapısı”**

# İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü münasibətilə Ali Məclisin xüsusi iclası keçirilib



Oktyabrın 14-də İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü münasibətilə Ali Məclisin xüsusi iclası keçirilib.

İclasın gündəliyinə aşağıdakı məsələ verilib:

– İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, 20 il bundan əvvəl – 2003-cü ildə cənab İlham Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilib. Çoxşaxəli və zəngin fəaliyyətində cənab Prezidentin nailiyyətlərindən biri Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi, işğalda olan ərazilərimizin geri qaytarılması ilə nəticələnən 44 günlük Vətən müharibəsində qa-



zanılan şanlı Zəfərdir. Bu gün bizim mükəmməl institutlarımız, güclü iqtisadiyyatımız, müdafiə potensialımız, düşünülmüş inkişaf strategiyamız və ən əsası isə dünyada tanınan və nüfuz sahibi olan cənab İlham Əliyev kimi liderimiz var.

Anar İbrahimov deputat həmkarlarını və onların seçicilərini əlamətdar hadisə münasibətilə təbrik edib.

Gündəlikdə duran məsələ ilə bağlı Ali Məclisin deputatları – Əmir Babayev, Ehtibar İsmayılov, Yeganə Məmmədova, Hacıfəxrəddin Səfərli, Ehtimad Məmmədov, Vüsalə Əliyeva və Asim Əliyev çıxış ediblər.

Çıxışlarda Azərbaycan Respublikasında bütün sahələrdə əldə edilən yüksək göstəricilərin Ulu Öndər Heydər Əliyevin milli inkişaf modelinin uğurlu tətbiqinin nəticəsi olduğu, sosial-siyasi islahatların ardıcıl həyata keçirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və digər bu kimi strateji tədbirlərin Azərbaycanın dinamik inkişafını təmin edən əsas faktorlar olduğu diqqətə çatdırılıb. Ümummilli Liderimiz müstəqil Azərbaycanın qurucusu, bugünkü uğurların müəllifi olmaqla bərabər, banisi olduğu dövlətçilik irsinin əbədiyaşarlığını təmin edən, ölkəmizi dünyada lider dövlətə çevirən, nəyin bahasına olursa-olsun, dövlət müstəqilliyini qoruyub möhkəmləndirən qüdrətli varisi də yetişdirib. Bu gün Ulu Öndərin mənəvi-siyasi irsinin layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müasir tarixinin şanlı səhifələri yazılır.

Deputatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ümumxalq seçkilərində xalqın səsini qazanaraq dəfələrlə qalib gəldiyini, ölkə başçısı seçildiyi ilk gündən bu günə kimi verdiyi vədləri yerinə yetirdiyini, bununla da Azərbaycanı dünyanın güclü dövlətlərindən birinə çevirdiyini diqqətə çatdırıblar. Qeyd olunub ki, Xalq-İqtidar birliyinin yaranması, xalqın Prezidentinin ətrafında bir yumruq kimi birləşməsi bütün çətinliklərin öhdəsindən gəlinməsini şərtləndirdi. Ölkə başçısının həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycanda söz, fikir azadlığı, güclü iqtisadiyyat, güclü ordu, əhalinin sosial rifahının yaxşılaşdırılması kimi mühüm məsələlər öz həllini tapıb.

Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi dövründə yetişən gənclik və şanlı ordumuz qızıl hərflərlə Zəfər salnaməsi yazdı, 30 illik işğalçılıq siyasətinə son qoyuldu, ərazi bütövlüyümüz, tarixi ədalət bərpa olundu. Uğurla başa çatan antiterror tədbirləri ilə isə Azərbaycan bütün dünyaya öz gücünü bir daha nümayiş etdirdi, suverenliyimiz təmin olundu. Hazırda dövlət başçısının rəhbərliyi ilə işğaldan azad edilən ərazilərdə bərpa və quruculuq işləri sürətlə davam etdirilir, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarında məskunlaşması prosesi həyata keçirilir.

Bildirilib ki, dövlət başçısının diqqət və qayğısı nəticəsində Azərbaycan bütün sahələrdə – iqtisadiyyat, müdafiə, təhsil, səhiyyə, turizm, mədəniyyət və digər istiqamətlərdə böyük uğurlara imza atıb. Buna görədir ki, ölkəmiz inkişaf dinamikasına görə dünyada lider dövlətlərdən biri kimi özünü təsdiqləyib. Hazırda ölkənin bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikası da dinamik inkişaf edir. Muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı 2023-2027-ci illəri əhatə edən Dövlət Proqramının qəbul olunması, Zəngəzur dəhlizinin açılması istiqamətində həyata keçirilən tədbirlər bunun əyani sübutudur.

Çıxışlarda deputatlar Ulu Öndərimizin əsasını qoyduğu inkişaf strategiyasını uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin inkişafının daha da sürətlənəcəyini, yeni-yeni uğurlara imza atılacağını vurğulayıb, təbriklərini çatdırıb, İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatına dəstək ifadə edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatının layihəsi hazırlanıb.

İclasda Ali Məclisin deputatı Aidə Cəlilzadə İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatını səsləndirib.

Bəyanatın təsdiq edilməsi ilə əlaqədar hazırlanmış qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib **(Bəyanatın mətni qəzetdə dərc olunur).**

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 14 oktyabr 2023-cü il tarixli xüsusi iclası öz işini başa çatdırdı.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinə şanlı səhifələr yazılır.

***“Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri layiqətlə yerinə yetirəcəyəm. Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam”***, – deyən cənab İlham Əliyev ötən 20 ildə sübut etdi ki, O verdiyi bütün vədləri gerçəkləşdirən, Ümummilli Liderimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən **praqmatik siyasətçi, tarixi şəxsiyyət və güclü liderdir.**

Azərbaycanın inkişaf edən ölkəyə və dünyada söz sahibinə çevrilməsi cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm nəticələridir. Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə – bütün bunlar tarixinin ən güclü dövrünü yaşayan müstəqil Azərbaycanın bugünkü reallıqlarıdır. Bu gün Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi ilə nəhəng iqtisadi layihələrin əsas iştirakçısı kimi regional və beynəlxalq səviyyədə öz mövqeyini möhkəmləndirir.

Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların mərkəzində Azərbaycan vətəndaşlarının rifahı və mənafeyi dayanır. 2003-cü ildən ötən dövrdə ölkəmizin iqtisadi göstəriciləri və valyuta ehtiyatları davamlı olaraq artıb, ictimai-siyasi sabitliyə, milli birliyə və dayanıqlı inkişafa nail olunub, yeni iş yerləri açılıb, əhalinin rifahı yüksəlib, vətəndaşlar layiqli həyat şəraiti ilə təmin edilib. Sözsüz ki, bütün bu islahatların effektivliyini təmin edən başlıca strateji faktor Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi, birbaşa Onun rəhbərliyi ilə reallaşdırılan inkişaf strategiyasıdır.

Azərbaycan dünyada etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. 155 dövlətin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-2022-ci illərdə dövlətimizin Qoşulmama Hərəkatına sədr seçilməsi və yenidən yekdil qərarla sədrlik müddətinin daha bir il uzadılması, regional və beynəlxalq enerji təhlükəsizliyinə töhfə verməsi, Avrasiyada mühüm nəqliyyat qovşağına çevrilməsi Azərbaycan dövlətinin və **Liderinin** yüksək nüfuzunun nəticəsidir.

Ordu quruculuğu sahəsində köklü islahatların aparılması, ordumuzun döyüş potensialının artırılması 2020-ci ildə işğal altındakı torpaqlarımızın azad olunması ilə nəticələndi. 44 günlük Vətən Müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi, Ermənistanın işğalçılıq siyasətinə son qoydu, regionda yeni geostrateji reallıqlar yaratdı, ən əsası isə Ümummilli Liderimiz Heydər Əliyevin arzularını reallaşdırdı. 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri isə erməni silahlı dəstələrinin tərksilah edilməsi, kriminal xunta rejiminin fəaliyyətinə son qoyulması və dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa olunması ilə nəticələndi. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və inkişafı, Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlər, Naxçıvan Muxtar Respublikasının ölkəmizin digər bölgələri ilə quru əlaqəsinin təmin olunması sahəsində həyata keçirilən tədbirlər, muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı 2023-2027-ci illəri əhatə edən Dövlət Proqramının qəbul olunması müstəqil Azərbaycanın siyasi və iqtisadi qüdrətinin daha bir göstəricisidir.

Cənab İlham Əliyevin fəaliyyətinin əsasında real iş və əməl dayanır. O, Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən, bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi **qalib liderdir.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi möhtərəm cənab İlham Əliyevi Prezident seçilməsinin 20-ci ildönümü münasibətilə təbrik edir, müstəqil və suveren Azərbaycanın tərəqqisi naminə ali dövlətçilik fəaliyyətində uğurlar arzulayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətini bundan sonra da daim dəstəkləyəcəyini bəyan edir.

## E.T.Nəcəfovun Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Elxan Tarqulu oğlu Nəcəfov Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini təyin edilsin.
2. Naxçıvan Muxtar Respublikasının təhsil naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Elxan Tarqulu oğlu Nəcəfova həvalə edilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 16 oktyabr 2023-cü il*

## T.H.Baxşıyevin Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti rəisinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Tural Hümbət oğlu Baxşıyev Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti rəisinin müavini təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 16 oktyabr 2023-cü il*

# Dövlətçiliyə və xalqa şərəfli xidmət yolu

## İlham Heydər oğlu Əliyevin prezidentlik fəaliyyətinin 20 illiyi ilə bağlı tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində keçirilən tədbiri giriş sözü ilə açan Naxçıan Muxtar Respublikasının maliyyə naziri vəzifələrini müvəqqəti icra edən, nazir müavini Həsən İsmayılov Prezident cənab İlham Əliyevin 20 il ərzində Azərbaycanın inkişafına hesablanmış və həyata keçirilmiş uğurlu siyasətindən danışıb. Qeyd edilib ki, bəhs olunan dövrdə sosial-iqtisadi, ictimai-siyasi, mədəni inkişaf yolunda mühüm tarixi uğurlar əldə edilib. Bu dövrdə əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasının ölkə başçısı tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dünya ölkələri sırasında öz sözünü deyən bir dövlətə çevrilib.

Çıxışda ölkə başçısının həm diplomatik, həm də hərb meydanında apardığı mübarizənin nəticəsi olaraq müzəffər Azərbaycan Ordusu tərəfindən 44 gün ərzində düşmən üzərində qazanılan parlaq qələbənin tarixi əhəmiyyətindən danışılıb.

Azərbaycan xalqı cənab İlham Əliyevə inanır, onun daha xoşbəxt gələcək vəd edən daxili və xarici siyasətini hamılıqla dəstəkləyir. Azərbaycanda həyata keçirilən siyasətin alternativi yoxdur. Xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır.

Sonra Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova "Qalib xalqın Qalib Prezidenti", nazirliyin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Tamaraxanım Aşurlu "Gənclərin ən böyük himayəçisi – Prezident İlham Əliyev" mövzusunda çıxış ediblər.

Sonda "İlham" sənədli filmi nümayiş etdirilib.



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində təşkil olunmmuş tədbiri giriş sözü ilə açan kənd təsərrüfatı naziri vəzifələrini müvəqqəti icra edən, nazir müavini Xəyalə Dadaşova bildirib ki, ölkə başçısı Ümummilli Lider Heydər Əliyev siyasətini daim ölkə ərazisində, bütün sahələrdə layiqincə davam etdirir. Prezident cənab İlham Əliyevin dövründə bütün sahələr kimi, aqrar sahə də inkişaf edərək təkmilləşib, bu sahədə həyata keçirilən islahatlar ölkəmizdə müasir kənd təsərrüfatı sisteminin formalaşmasına zəmin yaradıb.

"Orqanik Naxçıvan" publik hüquqi şəxsin direktor vəzifələrini icra edən Gülsel Səfərova çıxışında dövlət başçısının inkişaf etdirdiyi istiqamətlərdən biri olan aqrar sahəyə beynəlxalq standartların tətbiqi barədə məlumat verib.

Tədbirdə çıxış edən Heyvandarlığın təşkili və monitorinqi şöbəsinin müdiri Əyyub Abdullayev, "Ailə Təsərrüfatları" İctimai Birliyinin sədri Mübariz Şiraliyev və digərləri vurğulayıblar ki, əsas hədəf qloballaşan dövrə uyğun yeni texnologiyaların tətbiqi ilə mövcud problemləri həll edərək fermerlərin əməyini yüngülləşdirmək, elmi-texniki tərəqqiyə, innovasiyalı inkişafa nail olmaqdır.

Tədbirin sonunda kənd təsərrüfatı naziri vəzifələrini müvəqqəti icra edən, nazir müavini Xəyalə Dadaşova dövlət başçımızın çoxşaxəli aqrar siyasətinin muxtar respublikada da uğurla həyata keçirilməsindən bəhs edib. Nazir müavini "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn məsələlərin icrasına başlanıldığını, alt-tədbirlər planı hazırlanaraq ehtiyac duyulan bir çox məsələlərin həlli ilə yanaşı, aqrar sahənin inkişafında əsas rol oynayan əkinəyararlı torpaqların istifadəsiz qalmasının qarşısının alınması və mütərəqqi suvarma və əkin texnologiyalarından istifadə ilə bağlı təkliflərin hazırlandığını diqqətə çatdırıb.



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində keçirilən tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Seyidov bildirib ki, cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Ümummilli Lider Heydər Əliyev irsinin layiqli mirasçısı kimi keçdiyi yol çətin, eyni zamanda şərəfli bir yoldur. Cənab İlham Əliyevin mədəniyyət sahəsində apardığı məqsədyönlü fəaliyyətin nəticəsidir ki, 2011-ci ildən başlayaraq 2017-ci ilə qədər Bakıda dörd dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Prezident cənab İlham Əliyev tolerantlıq və multikulturalizmi Azərbaycanda dövlət siyasəti və həyat tərzi kimi xarakterizə edir. Ölkə Prezidentinin sərəncamlarına əsasən respublikada 2019-cu il "Nəsimi ili", 2021-ci il "Nizami Gəncəvi ili", 2022-ci il "Şuşa ili" kimi tarixin səhifələrinə yazılmış, Aşıq Ələsgərin 200 illik yubileyi dövlət səviyyəsində keçirilmiş, Şuşa 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Eyni zamanda mədəniyyət, incəsənət və bu sahədə işləyən sənət adamları qayğı ilə əhatə olunmuşdur.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Aparatının şöbə müdiri Rail Tağızadə, Heydər Əliyev Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyevin çıxışlarında Prezident cənab İlham Əliyevin ölkəmizin inkişafı və tərəqqisi yolunda atdığı addımlardan danışılıb. Diqqətə çatdırılıb ki, dövlət başçımızın həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilib, Ali Baş Komandanın qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın müzəffər Ordusu 30 illik işğala son qoyub.

Sonda "İlham" sənədli filminin nümayişi olub.



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatında keçirilən tədbirdə Ombudsman Günay Rzayeva çıxış edərək bildirib ki, Azərbaycan Respublikası müstəqilliyə qovuşduqdan sonra demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş tədbirlər nəticəsində bir çox nailiyyətlər əldə edilib. Demokratik, hüquqi dövlət quruculuğu prosesi hazırda Ulu Öndər Heydər Əliyevin dövlətçilik ənənələrinin davamçısı olan Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Qeyd olunub ki, ölkəmizdə baş verən sürətli sosial-iqtisadi inkişafı nəzərə alaraq demokratik cəmiyyətlərə xas hüquq sisteminin fəaliyyətinə, insan hüquqlarının etibarlı müdafiəsinə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti mühüm təşəbbüslərlə çıxış edir. Hüquq sisteminin səmərəliliyinin artırılması məqsədilə qanunvericilik və institusional islahatlar daha da dərinləşdirilir.

Sonra Müvəkkil aparatının şöbə müdiri Vahidə Bayramova "Hüquq və azadlıqların təminatçısı – 20 il" mövzusunda çıxış edərək bildirib ki, dövlət başçımızın rəhbərliyi altında hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi, ölkəmizdə konstitusion qaydaların möhkəmləndirilməsi və hüquq siyasətinin təkmilləşdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilib.

Sonda mövzu ətrafında müzakirələr aparılıb.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən tədbiri giriş sözü ilə açan Komitə sədri Ramilə Seyidova bildirib ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsi son 20 ildə yeni prinsip və nümunələrlə zənginləşərək, ölkəmizi daha da irəli aparıb və qalib ölkə kimi tarixə düşüb. 20 il ərzində sosial sahədə mühüm işlər görülüb, müvafiq sahədə qanunvericilik bazası təkmilləşdirilib, ölkəmiz beynəlxalq konvensiyaları ratifikasiya edib, bir çox Dövlət proqramları qəbul edilib.

Qeyd olunub ki, Ümummilli Liderimizin müəyyənləşdirdiyi dövlət qadın və gender siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən muxtar respublikamızda da uğurla davam etdirilir.

Naxçıvan qadınları muxtar respublikanın sosial-iqtisadi, mədəni, ictimai həyatında fəal iştirak edirlər. Onlar dövlət quruculuğu, hüquq-mühafizə, elm, səhiyyə, təhsil, mədəniyyət, idman, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərirlər. Bunu statistik rəqəmlər də təsdiq edir. Belə ki, muxtar respublika əhalisinin 50,1 faizi, işləyən təbəqənin 33 faizi qadınların payına düşür. Təhsil sahəsində işləyənlərin 71 faizini, səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində işləyənlərin 82,05 faizini, istirahət, əyləncə-incəsənət sahəsində işləyənlərin isə 62,8 faizini qadınlar təşkil edir. Dövlət qulluğunda işləyənlərin 22,82 faizi qadınlardır. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 24,44 faizini qadınlar təşkil edir. Həmçinin Naxçıvan Muxtar Respublikasından Azərbaycan Milli Məclisinə seçilən 7 deputatdan 1-i qadındır. Bu gün qadınların Yeni Azərbaycan Partiyasında təmsil olunmaları da özünü müsbət yöndə göstərməkdədir. Hazırda muxtar respublika təşkilatı üzvlərinin 25605-i, yaxud 44,14 faizi qadındır. Muxtar respublikanın idarə və təşkilatlarında onlarla qadın rəhbər vəzifələrdə işləyir.

Bildirilib ki, ölkə Prezidenti muxtar respublika qadınlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirir. Belə ki, son 20 ildə 200-dən artıq qadın Azərbaycan Respublikasının fəxri adları, həmçinin orden, medal və nişanları ilə təltif olunmuşlar.

Daha sonra mövzu ətrafında Komitənin sədr müavini Aytən Məmmədova, aparat rəhbəri Eltun Həziyev, şöbə müdiri Könül Babayevanın çıxışları dinlənilib.



Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində təşkil olunan tədbirdə əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canını fəda edən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Faiq Şıxəliyev bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri, uzaqgörən dövlət xadimi Heydər Əliyev irsinin layiqli davamçısı, sözü və əməli bütöv siyasətçi və diplomat kimi dünya ictimaiyyətinin hörmət və rəğbətini qazanmış böyük tarixi şəxsiyyət, Qalib ölkənin Qalib Lideri İlham Əliyev iyirmi ildir ki, respublikamıza uğurla rəhbərlik edir. Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-2023-cü illər ölkəmizin tarixinə yüksəliş dövrü kimi daxil olub. Xalqımızın yeni əsrdə yeni lideri olan cənab İlham Əliyev bu gün Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, xalqına xidməti həyat amalına çevirmiş, Azərbaycanın dövlət müstəqilliyinin və dinamik inkişafının qarantı olduğunu əyani şəkildə sübuta yetirmiş müdrik, qətiyyətli və mahir siyasətçi kimi xalqının böyük rəğbətini qazanmışdır.

Qeyd olundu ki, cənab İlham Əliyev həm də Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinə adını qızıl hərflərlə yazıb. 44 günlük Vətən müharibəsində düşməni təslim olub kapitulyasiya aktını imzalamağa məcbur edən Azərbaycan Ordusu və onun Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev bir daha bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır! Azərbaycan torpaqlarının suverenliyini tam təmin edən böyük sərkərdə tariximizin şanlı səhifələrini yazmaqda davam etdi. Bu gün üçrəngli şanlı bayrağımız Xankəndidə, Qarabağda, bütün Azərbaycanda dalğalanır.

Çıxışlar zamanı bildirilib ki, Azərbaycanda həyata keçirilən siyasətin alternativi yoxdur. Heydər Əliyev irsinin layiqli davamçısı, xalqın Prezidenti cənab İlham Əliyev ilə ölkəmizi daha böyük uğurlar gözləyir.



# "ASAN xidmət" mərkəzində peşəkarlıq səviyyəsinin yüksəldilməsinə dəstək

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ASAN İnnovativ İnkişaf Mərkəzi tərəfindən Naxçıvan regional "ASAN xidmət" mərkəzinin əməkdaşlarına "Vətəndaş məmnuniyyətində ASAN modeli" və "Emosiyaların idarə edilməsi" adlı təlimlər keçirilib. Təlimlər peşəkar təlimçi Könül Əliyeva tərəfindən aparılıb. Təlimlər 1 gün ərzində 4 saat davam edib.

Qeyd edək ki, ASAN İnnovativ İnkişaf Mərkəzi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşəbbüsü ilə yaradılıb.

Mərkəzin əsas məqsədi qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarının tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət orqanlarında kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə müsbət töhfələr verməkdir.

**Xəbərlər şöbəsi**

# 17 oktyabr FÜZULİ şəhəri günüdür

*Böyük Qələbəyə aparan 44 günün 21-ci günü düşünə-düşünə xəyallar məni bir neçə ay öncəyə qaytarır: 2023-cü il martın 1-i səhər saatlarıdır. Şuşa şəhərinin içməli su təchizatı sistemlərinin tikintisindən reportaj hazırlamaq üçün səfərə çıxmışıq. Zəfər yolu ilə irəliləyən avtobusun pəncərəsindən mənfur tör-töküntüsündən təmizlənən qədim, əzəli yurdumuzu qarış-qarış seyr etdikcə duyuram Qarabağın ağrı-acılardan təngə gələn, həsrət, hicran buzu bağlayan köksünün hərarətli döyüntüsünü, rahatlaşan nəfəsini, böyük ürək yanğısı, dərin sarsıntı, kəskin hiddət hissləri oyadır 30 illik çirkin niyyətlərin, naqis əməllərin misli-bərabəri tapılmayan təzahürləri... Bu mənzərələr qarşısında iki il bundan öncə, oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə ölkə Prezidentinin səsləndirdiyi fikirlər çınlayır yaddaşımda:* ***“...Füzuli şəhəri tamamilə yerləyeksan edilib. Siz yaxşı xatırlayırsınız, Azərbaycan xalqı yaxşı xatırlayır, Füzuli azad olunandan sonra bir bina tapılmadı ki, biz oraya bayrağımızı sancaq. Bayrağımız hərbi hissənin həyatində dirəkdə qaldırılmışdı. Buraya gələn hər bir insan erməni vəhşiliyini, erməni vandallığını görür və bunu artıq heç kim inkar edə bilməz...”***

## Şərəfli missiyanın icrasına təkan verən mənəvi güc, strateji üstünlük...



*Düşmənin fərarilik, ordumuzun cəsarətlik rəmzi...*

Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan hərbçisinin, əsgərinin haqq-ədalət savaşına çıxdığı 44 günlük Vətən müharibəsinin detallarını incələyəndə bir daha aydın olur ki, Böyük Qələbənin qazanılmasında hərbi-taktiki gediş kimi iki faktor həlledici rol oynadı: Füzuli zəfəri və Laçın dəhlizi. Əgər Laçın dəhlizinin ordumuz tərəfindən bağlanması noyabrın 8-də Şuşanın tamamilə mənfurlardan təmizlənməsinə yol açdısa, həmin zəfərə aparan əsas yol isə məhz oktyabrın 17-də Füzulidən keçdi. 44 günün xronikasına nəzər yetirəndə Füzulinin azad olunmasının əhəmiyyəti, eyni zamanda bu şəhərin döyüşlərin aparılması baxımından strateji üstünlüyü, əlverişli mövqedə yerləşməsi diqqəti çəkir. Bu mənada, müharibənin gedişatına, zəfər yürüşünə Füzulinin azadlığına qədər və sonra olaraq iki mərhələdə yanaşanda fikirlər tam aydınlaşır. Başqa sözlə desək, Füzuli səddi ortada sanki böyük bir dağ kimi dayanmışdı. Yəni diqqət yetirsək, görərik ki, müharibənin 21-ci günündə mənfurlardan alınan bu qədim şəhərimizin azadlığından cəmi 3 gün sonra Zəngilan şəhəri, ondan beş gün sonra Qubadlı şəhəri azad edildi, ardınca ordumuz Laçın dəhlizinə çıxdı və beləliklə, Qələbə simvolumuz sayılan Şuşaya yol açıldı, müharibənin taleyi həll olundu...

Tarixə nəzər salsaq, I Qarabağ müharibəsində də düşmən Şərqi Zəngəzurun tamamilə Azərbaycandan qoparılması yolunda əsas həlledici amil kimi Füzulinin işğalını qarşıya məqsəd qoymuşdu. Füzuli şəhərindən sonra ikinci hədəf kimi isə regionda strateji cəhətdən ən əhəmiyyətli, regional kommunikasiyaların kəsişdiyi rayonun Horadiz qəsəbəsinin ələ keçirilməsini seçmişdi. Həmin vaxt bu məkrli planla irəli keçən ermənilərin, təəssüf ki, havadarlarının köməkliyi ilə Horadiz qəsəbəsini işğal etməklə qonşu Cəbrayıl, Qubadlı və Zəngilan rayonları faktiki olaraq blokadaya düşdü və düşmənin işi xeyli asanlaşdı. Lakin Ümummilli Liderimiz Heydər Əliyevin qısa zaman çərçivəsində orduda apardığı islahatlar nəticəsində 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə Azərbaycan Silahlı Qüvvələri Araz çayı boyunca və Əhmədbəyli-Kürdmahmudlu-Alxanlı kəndləri istiqamətində əks-hücuma keçərək Horadiz qəsəbəsini, bir neçə kəndi azad etdi. Təbii ki, II Qarabağ müharibəsində Füzulinin, Cəbrayılın, Zəngilanın azad edilməsində həm kəşfiyyat, həm də əməliyyat şəraitinə nəzarət baxımından Cocuq Mərcanlı ilə yanaşı, illər öncə qazanılmış Horadiz zəfərinin də rolu az olmadı... Ordumuz 44 günlük Vətən müharibəsində ilk şəhidlərini Füzuli istiqamətində gedən şiddətli, amansız döyüşlərdə verdi. Çünki düşmən tərəfi bu rayonda çox güclü, bir neçə xətt istehkamdan ibarət müdafiə zonası yaratmışdı və düşünürdü ki, Azərbaycanın əsgər və zabitləri bu səddi heç vaxt keçə bilməz. Məsələyə real yanaşanda etiraf etmək lazımdır ki, həmin istehkamları yarmaq, keçmək, həqiqətən də, böyük cəsarət, qətiyyət tələb edirdi. Məhz bu baxımdan Füzuli zəfərini həm də əsgər və zabitlərimizin qəhrəmanlığının, şücaətinin, əzmkarlığının göstəricisi kimi xarakterizə etmək olar. Təbii ki, bunu görən düşmən vəlvələyə düşdü və Füzuli azad olunandan sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət aldı. Dərk etdilər ki, bizim əsgər-zabitlərimiz doğma torpaqları azad etmək üçün ölümə getməyə hazırdırlar və onların vətənpərvərlik ruhu, Vətən eşqi qarşısında heç bir maneə, heç bir sədd dözüm gətirməyə qadir deyil. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev də bu məqama diqqət çəkərək deyib: ***“...Füzuli uğrunda çox şiddətli döyüşlər gedirdi, bir neçə gün ərzində şəhərin ətrafında çox ciddi əməliyyatlar aparılırdı. Düşmən müqavimət göstərirdi, amma buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını yerinə yetirdi. Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz...”***

### *Qarabağın mühüm nəqliyyat qovşağı, dünyaya açılan hava qapısı...*

Tarixi Zəfərin əldə olunmasından sonra azad olunan torpaqlarla bağlı dövlət siyasətinin prioritetləri sırasında ərazilərin tez bir zamanda minalardan təmizlənməsi və qayıdış proqramının uğurla həyata keçirilməsidir. Bu mənada, birinci infrastruktur layihələri Füzulidə başlasa da, təəssüf ki, düşmən tərəfindən rayonun kütləvi şəkildə minalanması bu prosesi bir qədər mürəkkəbləşdirdi. Verilən rəsmi məlumatlara görə, ölkəmizin bu dilbər guşəsi azad edilmiş bölgələri arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur. Təxminən, burada yüz mindən çox mina basdırılıb. Ona görə də bütün işlər, yəni həm infrastruktur, həm də minatəmizləmə tədbirləri paralel şəkildə həyata keçirilir. Beynəlxalq standartlar çərçivəsində aparılan məskunlaşma siyasətinə uyğun Füzuli şəhərinin Baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıb. Böyük Qələbədən sonra cəmi 8 ay ərzində həyata keçirilən tikinti işləri nəticəsində beynəlxalq statusa malik, Qarabağın ilk hava qapısı sayılan Füzuli Beynəlxalq Hava Limanı tam hazır vəziyyətə gətirilib. 2021-ci il oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə aeroportun açılış mərasimi keçirildi. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metr olan hava limanının müasir infrastrukturla təchiz edilən terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Şuşada keçirilən beynəlxalq tədbirlərdə iştirak üçün həm Bakıdan, həm də ölkə xaricindən aeroporta mütəmadi reyslərin təşkili, eyni zamanda Füzuli-Şuşa, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Füzuli-Ağdam yollarının inşası gələcəkdə bu rayonumuzu Şərqi Zəngəzurun, Qarabağın əsas nəqliyyat qovşaqlarından birinə çevirərək sosial-iqtisadi inkişafına mühüm töhfələr verəcək, geosiyasi əhəmiyyətini xeyli artıracaq...





Ölkə Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda yer alan müddəalar, o cümlədən “Ağıllı şəhər”, “Ağıllı kənd” layihəsi Zəngilanın Ağalı kəndindən sonra Füzulidə də tətbiq olunmağa başlayıb. Artıq bu istiqamətdə işlərin icrası üçün əməli addımlar atılıb. Belə ki, rayonun azadlığının birinci ildönümündə ölkə Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Memorial Kompleksin və şəhərin bərpasının, eyni zamanda Dövlətyarlı kəndinin “Ağıllı kənd” konsepsiyası əsasında təməlini qoyublar. Beş kəndi birləşdirən bu layihə çərçivəsində Dövlətyarlıda birinci mərhələdə 450 evin tikintisi nəzərdə tutulur. Ondan sonra əlavə 300 ev inşa olunacaq. Bu, Füzuli rayonunda yaradılmasına başlanılan birinci yaşayış mərkəzidir. Bundan başqa, şəhər mərkəzində də MİDA tərəfindən ümumi sahəsi 8,9 hektar və 6 məhəllədə 38 yaşayış binasından ibarət Füzuli yaşayış kompleksi tikilir. Yaşayış binaları ilə yanaşı, ərazidə park, yeraltı və yerüstü avtodayanacaqlar, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək. Həyata keçirilən böyük quruculuq işləri çərçivəsində oktyabrın 16-da isə ölkə başçısının iştirakı ilə Füzuli şəhərində inzibati binanın, ikinci, üçüncü yaşayış komplekslərinin, 240 yerlik uşaq bağçasının, idman kompleksinin, Qoçəhmədli, Cuvarlı kəndlərinin təməlləri qoyulub.

Artıq Füzuli sakinləri də öz doğma yurdlarına qayıtmağa başlayıblar. Belə ki, bu il avqustun 18-dən etibarən Böyük Qayıdış proqramı çərçivəsində paytaxtın Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən Füzuli şəhərinə 23 ailə – 90 nəfərlik ilk köç karvanı yola salınıb. Evlərin bölgüsü isə məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsi püşkatma ilə aparılıb. Avqustun 5-də keçirilən püşkatmada 144 ailə ( 509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzillə təmin olunub. Oktyabrın 10-13-də isə növbəti köç karvanları ilə, ümumilikdə, 86 ailə – 297 nəfər doğma yurdlarına qayıdıb. Bununla da Böyük Qayıdış proqramı çərçivəsində Füzuli şəhərində 230 ailə, yəni 811 nəfərin daimi məskunlaşması təmin edilib. Qısa müddətdə görülən bu quruculuq işləri və həyata keçirilən qayıdış proqramı ölkə Prezidenti cənab İlham Əliyevin hələ 2021-ci il oktyabrın 17-də şəhərin bərpasının təməl daşını qoyan zaman rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə dediyi fikirlərinin əməli təsdiqidir: ***“...Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir...”***

### *Qayıdır şən günlər, qayıdır həyat, Xoşbəxtlik sinəndə açır qol-qanad!*

Otuzillik yad əllərdən, nankor baxışlardan, murdar ayaqlardan zinhara gələn, doğma münasibətə, munis duyğulara təşnə Füzulim! Doğma anan Azərbaycana qovuşmağının üçüncü ili tamam olur artıq, gözlərin hər zaman belə aydın, sabahların işıqlı, gələcəyin parlaq, Şuşaya, Ağdama, Hadruta, Cəbrayıla, Bakıya uzanan yolların rəvan, hava qapın qonaqlarının üzünə daim açıq olsun. Düz üç il bundan öncə uğrunda vətənpərvər oğulların dastan yazdılar, heç bir istehkam, heç bir maneə onları sənə olan sevdadan döndərə bilmədi, şəhid oldular, qazi oldular, qalib oldular, öz torpaqlarına, məmləkətlərinə sahib oldular... Ömrünün ağrılı-acılı, şaxtalı, boranlı illəri sona yetdi nəhayət, çin çıxıbdır ürəkdəki xoş arzular, saf niyyət. Qayıdır şən günlər, qayıdır həyat, xoşbəxtlik sinəndə açır qol-qanad, sığal çəkir hüsnünə övladların, ey elim, çevrilirsən gül-çiçəkli gülüstana Füzulim! Günün mübarək, Füzulim!

**Nail ƏSGƏROV**

**Bildiriş**

Naxçıvan şəhəri səhiyyə işçiləri həmkarlar ittifaqı şurası (VÖEN-0200136001) fəaliyyətini dayandırdığından ləğv olunur.

**İtmişdir**

Naxçıvan şəhəri, İ.Ələkbərov küçəsi 27A ünvanında Məmmədov Səlahəddin Samiddin oğlunun adına olan 4518 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 616